*https://doi.org/10.30546/114578.2025.10.3025*

# PROFESSOR MAHİRƏ HÜSEYNOVANIN ONOMASTİK TƏDQİQATLARINDA DİL, TARİX VƏ MƏDƏNİYYƏTİN İNTEQRASİYASI

**Sevinc Məmmədova**[1], **Reyhan Həbibli**[2]

*filologiya üzrə fəlsəfə doktoru, dosent*[1], *filologiya elmləri doktoru, dosent*[2]
*AMEA Nəsimi adın Dilçilik İnstitutu*[1], *Bakı Dövlət Universiteti*[2]
*https://ORCID.org/0000-0003-1979-0113*[1],
*https://ORCID.org/0000-0003-3236-0644*[2]
*sevinc-memmedova-65@mail.ru, rhabibli@bsu.edu.az*

**Xülasə**

Məqalədə professor Mahirə Hüseynovanın Azərbaycan onomastikasının inkişafında mühüm rol oynayan çoxşaxəli araşdırmaları təqdim olunur. Əsas məqsəd alimin elmi fəaliyyətində onomastik vahidlərin dilçilik, tarix, coğrafiya və mədəniyyət kontekstində araşdırılma istiqamətlərini müəyyənləşdirmək, onun Azərbaycan onomastik sisteminə gətirdiyi elmi yenilikləri ümumiləşdirməkdir. Tədqiqat materialı göstərir ki, alimin Qərbi Azərbaycan paleotoponimləri, mikrotoponimləri və poetik onomastika ilə bağlı araşdırmaları dil, tarix, coğrafiya və folklor elmlərinin inteqrasiyası əsasında aparılmışdır. Xüsusilə qeyd olunur ki, Mahirə Hüseynovanın əsərləri toponimlərin yalnız dil faktı deyil, həm də milli yaddaşın, mədəni kimliyin və etnik tarixin daşıyıcısı olduğunu sübut edir. Müəyyən edilmişdir ki, bu araşdırmalar Azərbaycan toponimikasına yeni metodoloji yanaşma gətirir milli onomastik təfəkkürün dərinləşməsinə töhfə verir.

**Açar sözlər:** onomastika, Qərbi Azərbaycan, toponim, paleotoponim, mikrocoğrafi ad.

# SCIENTIFIC AND THEORETICAL ANALYSIS OF ONOMASTIC UNITS INRESEARCH BY PROFESSOR MAHIRA HUSEYNOVA

**Sevinj Mammadova**[1], **Reyhan Habibli**[2]
*Institute of Linguistics named after Nasimi, ANAS*[1]
*Baku State University*[2]

**Abstract**

The article presents the diverse research of Professor Mahira Huseynova, which plays an important role in the development of Azerbaijani onomastics. The main objective is to identify areas of research of onomastic units in linguistic, historical, geographical, and cultural contexts in the scholar's scientific work, and to summarize Mahira Huseynova's scientific innovations and contributions to the Azerbaijani onomastic system. The research materials show that the scientist's studies on paleotoponyms, microtoponyms of Western Azerbaijan and poetic onomastics is based on the integration of language, history, geography, and folklore studies. It should be especially noted that Mahira Huseinova's scientific works demonstrate the following: toponyms are not only language facts but also bearers of national memory, cultural identity, and ethnic history. It has been established that these studies provide a new methodological approach to Azerbaijani onomastics and contribute to the deepening of national onomastic thinking.

**Key words:** onomastics, Western Azerbaijan, toponym, paleotoponym, microgeographical name.

## ИНТЕГРАЦИЯ ЯЗЫКА, ИСТОРИИ И КУЛЬТУРЫ В ОНОМАСТИЧЕСКИХ ИССЛЕДОВАНИЯХ ПРОФЕССОРА МАХИРЫ ГУСЕЙНОВОЙ

**Севиндж Мамедова[1], Рейхан Габибли[2]**

*Институт языкознания имени Насими НАНА*[1]

*Бакинский государственный университет*[2]

**Резюме**

В статье представлены разносторонние исследования профессора Махиры Гусейновой, играющие важную роль в развитии азербайджанской ономастики. Основная цель – определить направления исследования ономастических единиц в лингвистическом, историческом, географическом и культурных контекстах в научной деятельности ученого, обобщить научные новшества и вклад, внесенный Махиры Гусейновой в азербайджанскую ономастическую систему. Материалы исследования показывают, что научные изыскания ученого, связанные с палео-топонимами, микротопонимами Западного Азербайджана и поэтической ономастикой, проводятся на основе интеграции языка, истории, географии

и фольклористики. Особо следует отметить, что научные труды Махиры Гусейновой доказывают следующее: топонимы являются не только языковыми фактами, но и носителями национальной памяти, культурной идентичности и этнической истории. Установлено, что эти исследования обусловливают новый методологический подход к азербайджанской ономастике и вносят вклад в углубление национального ономастического мышления.

**Ключевые слова:** ономастика, Западный Азербайджан, топоним, палеотопоним, микрогеографическое название.

**Giriş/Introduction**

Professor Mahirə Hüseynova geniş yaradıcılıq dairəsinə malik alimdir. Azərbaycan dilçiliyinin müxtəlif sahələri üzrə araşdırmaları ilə seçilən alim monoqrafiyalar, dərs vəsaitləri, metodik vəsaitlər, fənn proqramları və bədii (şeirlər) kitabların müəllifidir. "Elmi araşdırmaları ilə diqqəti cəlb edən Mahirə Hüseynova 2001-ci ildən Qərbi Azərbaycanın Dərələyəz mahalı üzrə tədqiqatlar aparmışdır. Həmin mahalın aşıq və el şairlərinin yaradıcılığı, onomastik vahidləri haqqında xeyli material toplamış, 2012-ci ildə başladığı işi uğurla davam etdirərək filologiya üzrə fəlsəfə doktoru elmi adını qazanmışdır. Bu məqamda o həm görkəmli dilçi-alim Həsən Mirzəyevin filoloji görüşlərini, həm də Dərələyəzə aid olan dil faktlarını, poetik nümunələrini araşdırmışdır. Elə bunların nəticəsidir ki, o, 2017-ci ildə "XIX-XX əsr Azərbaycan aşıq və el şairlərinin yaradıcılığının dil, üslub xüsusiyyətləri" adlı dissertasiyasını yazmış və onu uğurla müdafiə edərək filologiya elmləri doktoru adını qazanmışdır" [Yubileyim, 2024:5].

Azərbaycan dilçiliyində onomastik vahidlərin, xüsusilə toponimlərin elmi şəkildə öyrənilməsi milli dil tarixinin, mədəni yaddaşın və etnik kimliyin dərin qatlarının üzə çıxarılmasına xidmət edir. Bu istiqamətdə mühüm elmi nəticələr əldə etmiş tədqiqatçılardan biri məhz professor Mahirə Hüseynovadır. Onun çoxillik araşdırmaları Azərbaycan onomastikasının nəzəri əsaslarının formalaşmasında, terminoloji sistemin elmi cəhətdən əsaslandırılmasında və toponimlərin tarixi-coğrafi mahiyyətinin açılmasında xüsusi əhəmiyyət daşıyır. Alimin əsərlərində dil faktı kimi toponimlərin yalnız lüğəvi və semantik tərəfi deyil, həm də onların etnoqrafik, tarixi və mədəni təbəqəliliyi sistemli şəkildə araşdırılır.

**Əsas hissə.** Qeyd etdiyimiz kimi, çoxcəhətli elmi yaradıcılığa malik olan alimin tədqiqat istiqamətlərindən biri də onomastikadır. Onun elmi

yaradıcılığında onomastika, xüsusilə toponimika məsələləri mühüm yer tutur. Mahirə Hüseynova öz əsərlərində toponimlərin səciyyəvi xüsusiyyətlərini geniş təhlil etmişdir. Əsərlərdə toponimlərin tarixi-linqvistik aspektdə araşdırılması yer adlarımızın yayılma arealının genişliyi barədə aydın təsəvvür yaradır. Belə əsərlərdən biri "Van" komponentli toponimlərin etimologiyası haqqında mülahizələrim" adlı məqalədir. O, Azərbaycan toponimiyasının mübahisəli məsələlərindən olan "van" komponentli coğrafi adların mənşəyi problemindən bəhs edir. Bu mövzu yalnız dilçilik deyil, həm də tarixi, etnoqrafik və siyasi aspektləri olan çoxşaxəli bir tədqiqat sahəsidir, regional tarixin qaranlıq məqamlarını aydınlaşdırmaq baxımından aktualdır.

Məqalədə Azərbaycan toponimiyasının mühüm bir aspektinə toxunulmuş, Naxçıvan, İrəvan, Mincivan, Bəcirəvan, Təngivan kimi konkret toponimlərin mənşəyi araşdırılmış, müxtəlif elmi fikirlərə və tarixi mənbələrə istinad edilmişdir. Burada müxtəlif dövrlərə aid zəngin mənbələr: qədim mənbələr (Ptolomey, Flavi), Orta əsr mənbələri (ərəb, fars, türk müəllifləri), müasir tədqiqatlar, müxtəlif xəritə və arxiv materialları əhatə olunmuşdur. Müəllif toponimləri təhlil edərkən bir sıra elmi tədqiqat üsullarından istifadə edir: tarixi-etimoloji təhlil, fonomorfoloji təhlil, müqayisəli təhlil, xronoloji təhlil. Bu yanaşma müəllifin arqumentlərini daha inandırıcı edir və tədqiqatın elmi dəyərini artırır.

Toponimlərin mənşəyi və etnik mənsubiyyəti Cənubi Qafqaz regionunda həssas bir mövzudur. Müəllif erməni tədqiqatçılarının toponimlərə dair iddialarını elmi yanaşma və ciddi arqumentlərlə təkzib etməyə çalışır.

Məqalədə "van" komponentli toponimlər: Naxçıvan, İrəvan, Bəcirəvan, Mincivan, Təngivan bir neçə istiqamətdə təhlil edilir, Naxçıvan oykonimi üçün müxtəlif etimoloji versiyalar irəli sürülür (məsələn, Nuh çıxan (ən geniş yayılmış versiya), Nəqşi-cahan (mədəni versiya), Naxç tayfasının yeri (etnoqrafik versiya) və s.). Professor Mahirə Hüseynova erməni tarixşünaslığının iddialarına sistemli şəkildə cavab verir. Toponimlərin tarixi mənbələrdəki izini təqib edərək "van" komponentinin erməni mənşəli olmadığını sübut edir və alternativ etimoloji versiyalar təqdim edir.

Müəllif dilçilik təhlilində aşağıdakı cəhətlərə diqqət yetirir: leksik vahidlərin tarixi evolüsiyası, fonetik dəyişikliklərin izahı, mənbə dillərindəki paralellər, apelyativlərin toponimlərə çevrilmə prosesi.

Tarixi torpaqların etnik tarixinin aydınlaşdırılması, mədəni irsin qorunması, təhrif olunmuş tarixi konsepsiyaların təkzibi, gələcək tədqiqatlar

üçün metodoloji baza yaradılması baxımından məqalənin elmi və praktik əhəmiyyəti vardır.

Məlum olduğu kimi, Qərbi Azərbaycan toponimlərinin geniş və dərindən tədqiqata cəlb olunması ən aktual məsələlərdəndir. "Qərbi Azərbaycan toponimlərinin mahir tədqiqatçısı" adlı məqalə Azərbaycan onomastikasına, xüsusən də professor Həsən Mirzəyevin Dərələyəz mahalının toponimiyasına dair tədqiqatlarına həsr olunmuşdur. Məqalə həm elmi məzmun baxımından zəngindir, həm də Azərbaycan toponimikasının tarix, dil və coğrafiya elmləri ilə inteqrasiyasını aydın şəkildə əks etdirir. Burada görkəmli alim Həsən Mirzəyevin fəaliyyəti çoxşaxəli şəkildə təqdim olunur, bu fəaliyyətin elmi istiqamətləri ardıcıllıqla və əsaslandırılmış faktlarla göstərilir. Həsən Mirzəyevin Dərələyəz bölgəsinin toponimiyasına dair araşdırmaları geniş və konkret faktlarla təqdim olunub. Bu araşdırmalarda yer adlarının (oykonim, oronim, hidronim) linqvistik, tarixi və coğrafi istiqamətlərdə təhlili onun elmi yanaşmasının kompleksliyini göstərir. Etnonimlərin və antroponimlərin işlənməsi məsələlərinin də ayrıca qeyd olunması məqalənin məzmun dairəsini genişləndirir. Məqalədə həmçinin aşıq poeziyasında işlənən onomastik vahidlərin tədqiqi məsələsinə toxunulması mətnə əlavə elmi dəyər qatır. Bu, dilçiliklə folklorşünaslıq arasında körpü yaradır.

Məqalə Həsən Mirzəyevin Azərbaycan onomastikasındakı rolunu tarixi, linqvistik və folklorşünaslıq aspektlərində aydın şəkildə nümayiş etdirir; toponimlərin təkcə coğrafi ad kimi yox, həm də tarixi yaddaşın daşıyıcısı kimi təqdim olunması çox dəyərlidir; oxucuya onomastikanın fənlərarası xarakterini göstərir; qeyd edilən nümunələr tədqiqatın faktoloji əsasını gücləndirir. Məqalə elmi baxımdan əsaslı faktlara söykənən, dilçilik, tarix və coğrafiya elmlərinin inteqrasiyası əsasında qurulmuş tədqiqat nümunəsidir.

Mahirə Hüseynova "Həsən Mirzəyevin yaradıcılığında filologiya məsələləri" mövzusunda yazdığı dissertasiyasında da professor Həsən Mirzəyevin yaradıcılığını təhlil etmişdir. Dissertasiyanın "Azərbaycan onomastikasına dair araşdırmalar" adlı fəslində Azərbaycan dilçiliyinin aktual istiqamətlərindən biri olan onomastika sahəsində aparılmış geniş və sistemli tədqiqatların nəticələri əksini tapmışdır. Müəllif, Həsən Mirzəyevin uzun illər ərzində Azərbaycan toponimiyasının öyrənilməsində vacib məsələlərdən olan Dərələyəz mahalının onomastik sistemini çoxplanlı şəkildə araşdırmasını, bu sahədə sanballı elmi nəticələr əldə etməsini vurğulamışdır.

Dissertasiyada göstərildiyi kimi, Həsən Mirzəyev 25 ildən artıq bir müddətdə Dərələyəz mahalına aid oykonim, oronim və hidronimləri həm

dilçilik, həm tarix, həm də coğrafiya istiqamətlərindən tədqiq etmişdir. Bu da onun tədqiqatlarının kompleks xarakter daşıdığını və multidissiplinar yanaşmaya əsaslandığını göstərir. Həsən Mirzəyev tədqiqatlarında leksik-semantik, fonetik və morfoloji prinsiplərə söykənərək xalq etimologiyasına əsaslanan subyektiv yozumlara yol verməmiş, yer adlarının mənşəyini dilin daxili qanunları çərçivəsində elmi şəkildə izah etmişdir.

Mahirə Hüseynova yazır ki, alimin Dərələyəz mahalının toponimlərinin tarixilik prinsipindən çıxış edərək apardığı araşdırmalar da diqqətəlayiqdir. Həsən Mirzəyev qədim mənbələrə əsaslanmaqla bölgəyə aid çoxsaylı yer-yurd adlarının (Təhlə, Qarqar, Keti, Murquz, Herher, Çul, Xalaclar, Şorca və s.) mənşəyini, formalaşma və dəyişmə proseslərini izləyə bilmiş, həmin toponimlərin tarixi-coğrafi areallarını dəqiq müəyyən etmişdir.

Dissertasiyada qeyd olunan faktlardan da göründüyü kimi, Həsən Mirzəyev yalnız dilçi kimi deyil, həm də tarixçi və coğrafiyaşünas kimi geniş dünyagörüşə malik alim olmuşdur. O, uzun illər ərzində Dərələyəz mahalının 170-dən çox yaşayış məntəqəsini tədqiq etmiş, bu toponimlərin coğrafi mövqelərini və relyef xüsusiyyətlərini müəyyənləşdirmişdir. Bu faktlar onun elmi erudisiyasının və sahəyə dərin bələdliyinin bariz göstəricisidir.

Alimin onomastik vahidlərin filoloji və poetik aspektlərini araşdırması da dissertasiyanın mühüm məziyyətlərindəndir. O, aşıq poeziyasında işlənmiş antroponim, etnonim və toponimləri toplayaraq onların funksional və üslubi xüsusiyyətlərini, dilimizdəki semantik dəyişiklikləri və mədəni-tarixi kontekstdə daşıdıqları mənaları üzə çıxarmışdır. Bu yanaşma həm onomastikanın, həm də xalq ədəbiyyatının qarşılıqlı əlaqəsini elmi müstəviyə gətirmişdir.

Həsən Mirzəyev onomastik vahidlərin növlər üzrə sistemləşdirilməsi, üslubi cəhətlərinin təhlili və aşıq yaradıcılığında işlənmə xüsusiyyətlərinin müəyyənləşdirilməsi sahəsində də yenilikçi yanaşma sərgiləmişdir. Bu nəticələr Azərbaycan onomastika elminin elmi-nəzəri bazasını zənginləşdirir və gələcək tədqiqatlar üçün dəyərli mənbə rolunu oynayır.

Professor Mahirə Hüseynovanın bu dissertasiyası yüksək elmi səviyyədə yazılmış, dil, tarix və coğrafiya elmlərinin qovşağında aparılmış kompleks araşdırmanın nəticəsi kimi qiymətləndirilməlidir. Dissertasiyadan aydın olur ki, Həsən Mirzəyevin apardığı tədqiqatlar Azərbaycan onomastikasının, xüsusən də Dərələyəz mahalının toponimiyasının öyrənilməsinə mühüm töhfə vermiş, bu sahədə yeni elmi istiqamətlərin formalaşmasına səbəb olmuşdur.

Görkəmli dilçi Mahirə Hüseynovanın onomastika sahəsindəki araşdırmalarında yer adlarının, xüsusən də Qərbi Azərbaycan toponimlərinin

təhlilinin nəzəri məsələləri kimi aktual problemlərə də geniş yer verilmişdir. Bu mənada onun çox mühüm nəzəri-praktik əhəmiyyət daşıyan "Qərbi Azərbaycan paleotoponimlərinin linqvistik-etimoloji təhlili" adlı kitabını xüsusi qeyd etmək lazımdır.

Professorun bu monoqrafiyası Azərbaycan onomastikasına dəyərli töhfədir. Monoqrafiya həm elmi tutumu, həm də gətirdiyi faktoloji materialın zənginliyi ilə diqqəti cəlb edir. Əsər giriş, iki əsas fəsil və nəticə hissələrindən ibarətdir. "Giriş"də Qərbi Azərbaycanda türkmənşəli toponimlərin araşdırılmasının zəruriliyi əsaslandırılır, bu adların arxaik məna çalarları, forma xüsusiyyətləri, yayılma arealları, fonetik və morfoloji quruluşu barədə məlumat verilir. Müəllif paleotoponimlərin dilin arxaik qatının öyrənilməsi baxımından mühüm əhəmiyyət daşıdığını, onların dərin elmi təhlilə cəlb edilməsinin vacibliyini vurğulayır. "*Dildəki arxaikləşmiş, lakin paleotoponimlərin dil tərkibində mühafizə olunmuş coğrafi adlar ictimai-tarixi inkişafın məhsulu kimi antik dövrün izlərini özündə qoruyub saxlayan real linqvistik faktlardır, tarixin və mədəniyyətin canlı salnamələridirlər*" [Hüseynova, 2023:22]. Burada həmçinin göstərilir ki, onomastik sistemin ən qədim təbəqəsini təşkil edən toponimlərin başqa dillərə tərcümə olunması və mənasının dəyişdirilməsi elmi baxımdan yolverilməzdir. Lakin müəllif haqlı olaraq qeyd edir ki, erməni ideoloqları bu prinsipləri pozaraq qədim türk toponimlərini saxtalaşdırmağa cəhd etmişlər.

Monoqrafiyanın birinci fəslində "Qərbi Azərbaycanda (indiki Ermənistanda) türk mənşəli paleotoponimlərin tarixi kökləri, fonetik, leksik, morfoloji tərkibi və semantik resursları" geniş şəkildə tədqiq olunmuşdur. Bu fəsildə Dərələyəz mahalına aid Ardaraz, Arpa, Ayısəsi, Cul, Erdəpin, Əkərək, Ərgəz kimi toponimlərdən başlayaraq, "art", "ay", "van", "sir/şir", "tur", "keş", "göy" komponentli çoxsaylı yer adlarının linqvistik-etimoloji təhlili təqdim edilmişdir. Müəllif bu adların həm qədim türk etnonimləri ilə, həm də bölgənin tarixi-coğrafi mühiti ilə əlaqəsini mənbələr əsasında əsaslandırmışdır. Bu toponimlər yalnız dil faktı kimi deyil, həm də xalqın tarixi yaddaşını və mənəvi varlığını əks etdirən dəyər kimi təqdim olunmuşdur.

İkinci fəsildə rəng bildirən sözlər əsasında formalaşmış paleotoponimlər araşdırılmış, "ağ", "al", "ala", "qara", "sarı" kimi komponentlərin semantik və fonetik inkişafı təhlil edilmişdir. Müəllif toponimlərdə baş verən fonetik dəyişmələrin səbəblərini, qədim leksik-semantik layların təkamülünü və bu dəyişikliklərin türk dillərinin ümumi inkişafı ilə bağlılığını göstərmişdir.

Tədqiqatın elmi dəyəri ondan ibarətdir ki, müəllif hər bir toponimi ayrı-ayrılıqda araşdırmaqla yanaşı, bu adların areallarını da müəyyənləşdirib. Qərbi Azərbaycanda işlənən bir çox toponimlərin Cənubi Azərbaycan, Gürcüstan, Şimali Qafqaz, Orta Asiya və hətta Şərqi Avropa ərazilərindəki oxşar adlarla paralelləri göstərilib. Beləliklə, bu adların türkmənşəli olduğunu tutarlı faktlarla sübuta yetirib.

Monoqrafiyada paleotoponimlərdə baş verən fonetik, morfoloji və semantik dəyişikliklər dilin təbii inkişafı və zamanla yaranan dialekt fərqləri ilə izah edilir. Müəllifin gəldiyi nəticəyə görə, paleotoponimlər xalqın ilkin tarixindən xəbər verən, onun dil, mədəniyyət və etnik kimliyini əks etdirən mühüm mədəniyyət abidələridir. Əsər Azərbaycan toponimikasının tarixi-etimoloji istiqamətdə öyrənilməsinə yeni yanaşma gətirir və bu sahədə mühüm elmi nəticələr ortaya qoyur.

Görkəmli alimin daha bir məqaləsi Qərbi Azərbaycan toponimlərinin linqvokulturoloji, etnoqrafik və tarixi aspektlərdən tədqiqinə həsr olunmuşdur və belə adlanır: "Qərbi Azərbaycanın toponimləri: Milli kimliyin izləri".

Məqalənin əsas məqsədi – dil, tarix və mədəniyyətin vəhdətini toponimik materiallar üzərində nümayiş etdirmək, toponimləri yalnız coğrafi göstərici kimi deyil, həm də xalqın mədəni yaddaşının kodu kimi şərh etməkdir. Müəllif bu baxımdan "dünyanın linqvistik mənzərəsi", "kulturoloji kod", "antroposentrizm", "onomastik məkan" kimi anlayışları mərkəzə çəkir və Azərbaycan reallığında onların tətbiqini göstərir.

Mövzunun aktuallığı danılmazdır: müasir dilçilikdə "dünyanın dil mənzərəsi" anlayışı, insanın dil vasitəsilə reallığı dərk etmə modeli kimi qəbul olunur. Müəllif bu konsepsiyanı toponimik sistemə tətbiq etməklə məsələyə həm nəzəri, həm də tarixi-etnocoğrafi baxış gətirir. *"Fikrimizcə, linqvativ-mədəni və tarixi-etnoloji kateqoriya kimi toponimik sistemin bu istiqamətdə təhlili cəhdi tamamilə başadüşüləndir. Etnik təcrübə və mədəniyyət əsasən istənilən xalqın inkişafı və həyat tarixinin xüsusiyyətləri ilə müəyyən edilir. Dünyanın toponimik mənzərəsinin tədqiqini aktual edən məsələ toponimlərin etnokulturoloji əhəmiyyətini özündə saxlayır, xalqların tarixi keçmişi, onların məskunlaşma arealı və sərhədlərini göstərir"* [Hüseynova, 2025].

Məqalənin ikinci yarısı Qərbi Azərbaycanın toponimik mənzərəsi üzərində konkret tarixi və coğrafi faktlara söykənir. Burada müəllif İbn Xordadbeh, Yaqut əl-Həməvi, Adam Oleari, S.M.Bronevski, Y.A.Poxomov kimi mənbələrə istinad edir, Qərbi Azərbaycan ərazilərindəki Göyçə, Dərələyəz, Zəngəzur, Arpaçay, Basarkeçər, Pəmbək və s. toponimləri sadalayır, bu adların türk mənşəli

olduğunu və tarixi sənədlərlə təsdiqləndiyini vurğulayır, sonra XIX–XX əsrlərdə aparılan toponimik dəyişiklikləri (ermənilәşdirmə siyasətini) ardıcıl şəkildə faktlarla göstərir. Bu hissə tarixi-coğrafi kontekstin elmi əsaslandırılması baxımından yüksək dəyərə malikdir. Məqalənin ən güclü tərəfi də məhz budur: linqvistik konsepsiya tarixi faktlarla bütöv şəkildə əlaqələndirilir.

Müəllif nəticə etibarilə bu qənaətə gəlir ki, toponimlər mədəniyyətin "şifrələnmiş kodudur"; onların dəyişdirilməsi mədəni yaddaşın pozulması deməkdir. Qərbi Azərbaycanın toponim sistemi Azərbaycan xalqının tarixi varlığını sübut edən dil faktıdır. Linqvokulturoloji yanaşma bu faktları sadəcə dil vahidi kimi yox, həm də mədəni hadisə kimi araşdırmağı tələb edir. Beləliklə, məqalə həm elmi-nəzəri, həm də ideoloji-tarixi baxımdan sistemli yanaşma sərgiləyir.

Bu məqalə Azərbaycan toponimikasının milli-mədəni funksiyasını əsaslandırır, Qərbi Azərbaycan tarixi yaddaşının bərpasına xidmət edir. Dilçilik və kulturologiya arasında körpü yaradan bu araşdırma onomastik materialın ideoloji-siyasi kontekstdə interpretasiyası ilə fərqlənir.

**"Dərələyəz mahalının mikrocoğrafi adlarının etimoloji təhlili"** adlı məqalə Azərbaycan onomastikasının aktual istiqamətlərindən birinə – mikrotoponimlərin yaranması, mənşəyi və semantik inkişafına həsr olunmuş elmi tədqiqatdır.

Məqalədə müəllif Dərələyəz mahalının coğrafi mühiti, tarixi keçmişi və etnik tərkibi ilə əlaqədar çoxsaylı yer adlarını toplayaraq onların etimoloji mənşəyini müəyyənləşdirməyə çalışmışdır. Tədqiqatda dilçilik, tarix və coğrafiya elmlərinin prinsipləri uzlaşdırılmış, mikrocoğrafi adların leksik-semantik, fonetik və morfoloji quruluşu elmi əsaslarla izah edilmiş, toponimlərin dil və tarix baxımından müqayisəli təhlili verilmiş, elmi mənbələrə və sahə materiallarına əsaslanılmışdır.

Məqalənin əsas dəyəri ondadır ki, müəllif coğrafi adların yalnız dil hadisəsi kimi deyil, həm də tarixi yaddaş və etnik kimlik göstəricisi kimi öyrənilməsinə diqqət yetirir. Bu, toponimikanın etnoqrafik və tarixi funksiyalarını üzə çıxarmağa imkan verir. Məqalə Dərələyəz mahalının mikrocoğrafi adlarının ilk sistemli etimoloji təhlillərindən biridir. Müəllifin Dərələyəz mahalının mikrocoğrafi adlarını mənbə və xəritə materialları ilə tutuşdurması, onların tarixi-coğrafi sərhədlərini dəqiq göstərməsi elmi baxımdan dəyərlidir.

Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, müəllif Dərələyəz mahalının mikrotoponimlərini yalnız dil baxımından deyil, həm də etnoqrafik və tarixi

aspektdə təhlil etmişdir. Bir çox adların xalq etimologiyasına əsaslanan izahları sistemləşdirilmiş, toponimlərin coğrafi xüsusiyyətlərlə əlaqəsi aydınlaşdırılmışdır. Bu, Azərbaycan toponimikasının regional tədqiqatlarında yeni yanaşma kimi qiymətləndirilə bilər.

Beləliklə, "Dərələyəz mahalının mikrocoğrafi adlarının etimoloji təhlili" məqaləsi Azərbaycan toponimiyasının öyrənilməsi baxımından elmi əhəmiyyətə malik, faktoloji baza ilə zəngin, dilçilik prinsiplərinə əsaslanan sanballı bir araşdırmadır. Tədqiqatda Dərələyəz bölgəsinin yer adları vasitəsilə həm dil tariximiz, həm də xalqımızın qədim məskunlaşma arealı aydın şəkildə üzə çıxarılmışdır.

Professor Mahirə Hüseynova **"XX əsrdə Dərələyəzdə urbisid və etnosid aktları"** adlı monoqrafiyasında Dərələyəz mahalında dağıdılmış kəndlərin, məhv edilmiş yaşayış məntəqələrinin adlarını tarixi və etimoloji baxımdan təhlil etmiş, elmi-nəzəri nəticələrini konkret faktlarla əsaslandırmışdır. Əsərdə həmin yaşayış məntəqələrinin ayrı-ayrı coğrafi ərazilərdə yayılma arealları, leksik-semantik xüsusiyyətləri araşdırmaya cəlb olunmuşdur. Müəllifin özünün də qeyd etdiyi kimi, oponimlərin antik dövrlərinin tədqiqi zamanı qarşımıza qoyduğumuz məqsəd təkcə müqayisəli-tarixi metoddan yararlanmaq deyil, həm də əsas problem kimi dilin müxtəlif səviyyələrində restavrasiya olunmuş formaları və bu formalar arasındakı qarşılıqlı əlaqələri düzgün müəyyənləşdirməkdən ibarətdir ki, təhlil prosesində bu cəhətlərə də xüsusi önəm verilib. O daha sonra qeyd edir ki, tarixi qaynaqlar birmənalı şəkildə Qərbi Azərbaycan asların, suvarların, bulqarların, peçeneqlərin, utilərin, xəzərlərin, kəngərlərin, qarqarların və başqalarının yaşadıqları, təşəkkül tapıb formalaşdığı qədim bir yurd yeri olduğunu da sübut etmişdir. Bu etnos adlarının, demək olar ki, hamısı türk-Azərbaycan dilinin qrammatik quruluşu əsasında təşəkkül tapmışdır.

Alimin XIX-XX əsrlər Dərələyəz mahalının aşıq və el şairlərinin əsərləri əsasında Qərbi Azərbaycanda baş vermiş ictimai-siyasi hadisələrin elmi təhlilinə həsr etdiyi tədqiqatı da son dərəcə əhəmiyyətli və aktual bir elmi işdir. Müəllif "XIX-XX əsrlər Azərbaycan aşıq və el şairlərinin yaradıcılığında onomastik vahidlərin linqvopoetikası" adlanan bu tədqiqatında yalnız bədii mətnləri deyil, həm də onların arxasında dayanan tarixi reallıqları, ictimai hadisələri və etnik prosesləri dərin elmi əsaslarla araşdırmışdır. Əsərin "Poetik kontekstdə antroponimlərin obrazlılığı" və digər bölmələrində onomastik vahidlərin poetik sistemdəki funksiyaları çoxşaxəli şəkildə təhlil edilir. Müəllifin məqsədi aşıq və el şairlərinin yaradıcılığında antroponim, toponim, etnotoponim, hidronim,

zoonim, kosmonim və ktematonimlərin poetik-estetik imkanlarını üzə çıxarmaq, bu vahidlərin bədii təfəkkürlə əlaqəsini müəyyənləşdirməkdir.

Müəllif onomastik vahidlərə yalnız dil faktı kimi deyil, həm də bədii düşüncənin ifadə vasitəsi kimi yanaşır. Xüsusilə antroponimlərin (Adəm, Həvva, Nuh, Leyli, Məcnun və s.) poetik emosiyaya, obrazlı təfəkkürə necə xidmət etdiyini göstərməsi diqqəti cəlb edir. Hər bir onim növü (etnotoponim, toponim, hidronim və s.) ayrıca yarımbölmələrdə sistemli şəkildə qruplaşdırılmış, nümunələr üzərində konkret semantik və üslubi təhlillər aparılmışdır.

Tədqiqatda diqqəti cəlb edən əsas cəhətlərdən biri odur ki, müəllif onomastik vahidlərin milli-mənəvi dəyərlərlə əlaqəsini xüsusi vurğulayır. Məsələn, etnotoponimlərin xalqın mənəvi dünyasını, hidronimlərin isə coğrafi və tarixi yaddaşı ifadə etməsi fikri poetik dilin milli kodunu anlamağa imkan verir. Material zənginliyi və sistematik yanaşma müəllifin geniş mənbə bazasından istifadə etdiyini göstərir. Onimlərin bədii mətnin emosional, semantik və ekspressiv qatlarının formalaşmasındakı roluna dair qənaətlər tədqiqatın elmi-nəzəri səviyyəsini artırır. Xüsusilə qeyd etmək lazımdır ki, alim poetik onomastika sahəsində yeni elmi yanaşma nümayiş etdirmiş, bu istiqamətdə aparılan tədqiqatların metodoloji əsaslarını zənginləşdirmiş, Azərbaycan dilçiliyində onomopoetik istiqamətin inkişafına əhəmiyyətli töhfə vermişdir. Mahirə Hüseynovanın bu tədqiqatı Qərbi Azərbaycan toponimikasının, poetik onomastikanın və dil-tarix əlaqələrinin öyrənilməsində yeni mərhələ açır. Onun apardığı araşdırmalar həm elmi, həm də milli baxımdan dəyərli və əhəmiyyətlidir.

**Nəticə/Conclusion**

Aparılmış tədqiqatlar göstərir ki, professor Mahirə Hüseynovanın onomastika sahəsindəki elmi fəaliyyəti Azərbaycan toponimikasının inkişafında yeni mərhələ yaratmışdır. Onun elmi-nəzəri qənaətləri toponimlərin mənşə, semantika və funksional xüsusiyyətlərinin izahında sistemli yanaşmanı təmin etmiş, dil faktı ilə mədəni yaddaş arasındakı qarşılıqlı əlaqəni elmi əsaslarla təsdiqləmişdir. Mahirə Hüseynovanın elmi yaradıcılığı müasir onomastikanın konseptual istiqamətlərinin müəyyənləşməsində, milli onomastik düşüncənin elmi səviyyədə inkişafında və gələcək tədqiqatlar üçün etibarlı nəzəri baza yaradılmasında mühüm rol oynayır.

## ƏDƏBİYYAT/REFERENCES

1. Hüseynova, M. (2011). Həsən Mirzəyevin yaradıcılığında filologiya məsələləri / Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. − Bakı: − 27 s. https://azerbaycandili.az-/Synopsis/Download/2163/H%C3%9CSEYNOVA%20MAH%C4%B0R%-C6%8F%20NA%C4%9EI%20QIZI.pdf

2. Hüseynova, M. (2015). XIX-XX əsrlər Azərbaycan aşıq və el şairlərinin yaradıcılığında onomastik vahidlərin linqvopoetikası. Dərs vəsaiti. – Bakı: ADPU nəşriyyatı. − 204 s.

3. Hüseynova, M. (2020). “Van” komponentli toponimlərin etimologiyası haqqında mülahizələrim // “Linqvistika problemləri”. cild 1, №3. – Bakı, − s.14-22. https://www.anl.az/down/meqale/linqvistika_problemleri/2020/03/01.pdf

4. Hüseynova, M. (2021). Qərbi Azərbaycan toponimlərinin mahir tədqiqatçısı // “Azərbaycan müəllimi”, 24 sentyabr.

5. Hüseynova, M. (2023). Qərbi Azərbaycan paleotoponimlərinin linqvistik-etimoloji təhlili. – Bakı: ADPU nəşriyyatı. − 256 s.

6. Hüseynova, M. (2024). XX əsrdə Dərələyəzdə urbisid və etnosid aktları. – Bakı: ADPU nəşriyyatı. − 232 s.

7. Hüseynova, M. (2025). Qərbi Azərbaycanın toponimləri: Milli kimliyin izləri // “Xalq qəzeti”, 10 aprel. https://www.xalqqazeti.az/az/sosial-heyat/221232-qerbi-azerbaycanin-toponimlerimilli-kimliyin-izleri

8. Hüseynova, M. (2025). Dərələyəz mahalının mikrocoğrafi adlarının etimoloji təhlili // “Azərbaycan müəllimi”, 20 sentyabr. https://api.muallim.-edu.az/uploads/muallimeduazqazetpdf/22%20September%202025/b3326836-ebcf-4316-80ff-cfcbd680a253_20-SENTYABR--%20(1).pdf

9. Yubileyim (2024). – Bakı: “Zəngəzurda” Çap Evi. − 164 s. https://yubileyim.az/wp-content/uploads/2024/11/YUBILEYIM.pdf